UOT 81
https://doi.org/10.59849/2311-8482.2025.3.105

LEYLA HƏSƏNOVA*

# 20-50-Cİ İLLƏR ŞEİRİNDƏ ROMANTİZMƏ MƏXSUS DİL XÜSUSİYYƏTLƏRİ

*Məqalədə XX əsrin 20-50-ci illərində Azərbaycan poeziyasında romantizmin bir cərəyan olaraq deyil, bədii-estetik təsir kimi şairlərin dilində və poetik düşüncəsində ənənə şəklində öz mövcudluğunu davam etdirməsi araşdırılır. O dövrün görkəmli şairləri olan Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq və Süleyman Rüstəmin şeirləri əsasında romantizmin leksik, sintaktik və bədii xüsusiyyətləri tədqiqata cəlb olunmuş, XX əsrin poetik nümunələri üzərində romantik poetikanın davamlı təsirləri nümunələrlə göstərilərək bu xüsusda dolğun fərziyyələr irəli sürülmüşdür. Tədqiqatın məqsədi romantik poeziyanın hiss və estetik baxımından XX əsr şairlərimizin yaradıcılığında buraxdığı izləri ortaya qoymaqdır.*

***Açar sözlər:*** *romantizm, Azərbaycan poeziyası, Səməd Vurğun, Əhməd Cavad, Mikayıl Müşfiq, Süleyman Rüstəm, poetik dil, romantik təzahür*

**Giriş.** XX əsr ədəbiyyat tariximizin ən mühüm mərhələlərindən biridir. Əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında yaranan və əsas aparıcı cərəyanlardan birinə çevrilən romantizm cərəyanı, 20-50-ci illərdə artıq bir cərəyan kimi aktuallığını itirsə də, onun estetik və ideya təsirləri bir çox şairlərin yaradıcılığında yaşamışdır. Xüsusilə Səməd Vurğun, Əhməd Cavad, Mikayıl Müşfiq və Süleyman Rüstəm kimi şairlərin əsərlərində romantizmin poetik dil üzərindəki təsiri aydın hiss olunur. 1920–1950-ci illər Azərbaycan poeziyası sosialist realizmi prinsipləri əsasında inkişaf etsə də, romantizm ənənələri bu dövrdə də müəyyən qədər qorunub saxlanmışdır. Ədəbiyyatın ideoloji çərçivəyə salınmasına baxmayaraq, bəzi şairlər romantik üslub elementlərini öz yaradıcılıqlarında yaşatmış, əsərlərində qəhrəmanlıq, azadlıq, ümid və gələcəyə inam kimi motivləri ifadə etmişlər.

**Əsas hissə.** Sosializm ideologiyasına əsaslanan XX əsr poeziyasında romantik ruhun yaşaması təsadüfi deyildi. Romantizm əsasən fərdin daxili aləmi, yüksək ideallar və bəzən də utopik düşüncələrlə bağlı olduğuna görə, sosialist ideyalarla müəyyən məqamlarda uyğunlaşa bilirdi. Lakin bu romantizm klassik romantizmdən fərqli olaraq daha çox sosial-siyasi məqsədlərə xidmət edirdi. Məlum olduğu kimi, romantizmin əsas xüsusiyyətlərindən biri təbiətin təsvirində lirik və simvolik üslubdan istifadədir. “İstər xalq-aşıq şeirində, istərsə klassik poeziyada peyzaj lirikasının tarixi qədim, poetik ənənləri zəngindir. XX əsr Azərbaycan romantikləri təbiətin təsvirlərini verərkən bu ənənələrə istinad etməklə yanaşı, onun məna və məzmun dairəsini xeyli genişləndirmiş, təbiətə yeni və fəal poetik münasibət göstərmişlər. Romantik şair üçün təbiət təsviri özlüyündə bəlkə də məqsəd deyildi, bu və ya digər sosial-siyasi problemin, konkret ədəbi-estetik vəzifənin həllinə xidmət edən vasitələrdən biri idi” [10, s.20] Sosrealist şeirdə bu xüsusiyyət, kollektiv əməyin və sosial dəyişikliklərin tərənnümünü ön plana çıxarırdı. Sosrealist poeziya, ilk baxışda romantizmlə ziddiyyətli görünsə də, əslində Azərbaycan şairləri tərəfindən bu iki estetik sistemin uğurla sintez edildiyi bir məkan olmuşdur. Təbiətə romantik münasibət, fərdi hisslərin lirizmi və idealizm, sosialist ideologiyanın tələblərinə tabe edilərək, poeziyaya daha emosional və bədii dərinlik qazandırmışdır. Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm kimi şairlər əsərlərində nəinki dövrün siyasi tələblərinə cavab vermiş, həm də romantik ənənələrin milli mədəniyyətdə davamlılığını təmin etmişlər. Bu sintez, həm ideoloji, həm də bədii cəhətdən Azərbaycan ədəbiyyatının inkişafında unikal bir mərhələni əks etdirir. Bütün bunların nəticəsi olaraq, XX əsr Azərbaycan poeziyası artıq təkcə romantizm cərəyanı ilə deyil, sosialist realizmi, vətənpərvərlik və xalqçılıq kimi yönlərlə də formalaşırdı. Lakin bəzi şairlərin poetik dili bu ideoloji axınlarla yanaşı, romantik duyğularla da zəngin idi.

Romantik təsirin ən bariz izlərindən biri şairlərin söz ehtiyatında duyğusal və simvolik ifadələrin çoxluğudur. Məsələn: Mikayıl Müşfiqin lirik şeirlərində “göy üzü”, “külək”, “sevgilim”,

"azadlıq" kimi ifadələr tez-tez istifadə olunur. Müşfiqin dilindəki incəlik və musiqililik romantizmin təsirini qoruyur.

Əhməd Cavadın şeirlərində tez-tez istifadə etdiyi "Ey vətən", "Türkün bayrağı", "azadlıq" kimi sözlər həm romantik, həm də milli ruhu əks etdirmək baxımından maraq doğurur. Onun poeziyasında romantizm xalqın azadlıq həsrəti ilə birləşir.

Səməd Vurğunun poeziyasındakı "səhrada açan çiçək", "buludlar", "dağlar", "çinarlar" kimi ifadələr romantik təbiət və sevgi motivlərinin güclü istifadəsini göstərir.

Süleyman Rüstəm özünün vətən motivli şeirlərində ideal obrazlardan, bəzən isə sevgiyə bənzər emosional yanaşmalardan istifadə edir ki, bunlar da romantizmin təsirləridir.

Yuxarıda adları qeyd olunan şairlərin poetik üslubunda romantik təsirin izləri sintaktik quruluşda da özünü göstərir. Səməd Vurğun, bir qayda olaraq, uzun, paralel cümlələrlə emosiyanı artırır. "Ana" şeirindən olan aşağıdakı nümunəyə nəzər salaq:

Qoynunda bəslənir gözəl diləklər,
Layiqdir səcdəyə sənə mələklər,
Nerdesen, gözlərim həp səni bəklər,
Bax evladın nasıl giryandır, ana! [9, s.24]

Xalq şairinin bir çox şeirlərində bu estetik qayə gözlənilir və bunun nəticəsi olaraq da şeirləri hər kəs tərəfindən asanlıqla və həvəslə öyrənilir:

Bəxt məni bu yerə qonaq göndərdi,
Gedirəm, yamandır ayrılıq dərdi.
Demə, Səməd Vurğun gəldi-gedərdi,
Unutmaz bu oba, bu mahal məni…[9, s.281]

"Yada sal məni" şeirindən olan yuxarıdakı nümunə Səməd Vurğunun poeziyasında romantik fəlsəfənin, yurd sevgisinin və ölüm sonrası əbədiyyət inamının bariz nümunəsidir. "Qonaq" obrazı həyatın müvəqqətiliyini, "ayrılıq dərdi" isə romantik duyğunun əbədi tematikasını xatırladır. Şair burada xalqla ruhani bir bağ qurur və yaddaşda yaşamaq istəyi ilə romantik ölümsüzlük ideyasını ifadə edir. " Şairin bütün əsərlərində vətənə məhəbbətin, sevginin notları var. O, Azərbaycanı, onun təbiət incilərini, ucsuz-bucaqsız çöllərini, "ürək açan mənzərələri"ni şeirlərində vəsf etmiş, onların dolğun surətini, canlı obrazını yaratmışdır."[11]

Mikayıl Müşfiqin şeirlərinin ruhunda ana dilinin zənginliyi, poeziyasındakı millilik, vətənpərvərlik, xalq ruhunun bədiliyi fonunda əks olunur. O, poeziyasında musiqililiyə, ritmə xüsusi önəm verir. Cümlələrdəki ahəng romantik poetikanı xatırladır:

O qara gözlərin deyil parlayan,
Ulduzlar içində gecələrimdir.
Bəlkə də ruhuma aydınlıq yayan,
Bir sərin, ziyalı, yaz səhərimdir. [6, s.144]

Bu şeirdə Müşfiq sevginin fiziki gözəllikdən daha çox mənəvi bir işıq qaynağı olduğunu göstərir. "Ulduzlar", "gecə", "yaz səhəri" kimi simvollar vasitəsilə daxili aləmin poetik təsviri romantik poeziyanın güclü təsirini əks etdirir. Misralarda həm lirizm, həm də incə musiqililik duyulur. "Azərbaycan xalqı var olduqca, Müşfiq yaşayacaq. Müşfiqdən 100 il əvvəl də şairlər yeni-yeni sözlər qoşublar, Müşfiqdən min il, on min il sonra da yeni-yeni sözlər qoşacaqlar. Yeni şairlər yaranacaq, yeni-yeni əsərlər üzə çıxacaq. Amma Müşfiqdən əvvəlki və sonrakı bütün Azərbaycan poeziyasında Müşfiqin yeri həmişə ən ucalarda olacaq."[5]

Əhməd Cavad hər zaman poeziyasında bədii təsvir vasitələri – epitet, təşbeh və metaforalarla duyğunu yüksəldib, romantik estetikanı diqqətdə saxlayır:

Dünyadan qiymətli ölkəmin bağı,
Qızıldan daşları, ipək yaprağı,
Sevgili yurdumun odlu torpağı,
Üstündə yüksələn şanlı bayrağı,
Mən onun telini hörməyə gəldim!
Yarımı tarlada görməyə gəldim! [1, s,254]

Şairin şeirlərindəki hər bir misra emosional yük daşıyır və klassik romantik poeziya ilə səsləşir:

Mən deyən yox, fələk deyən oldusa,
Əsdi yellər, gül yanağın soldusa,
Dərd əlindən ala gözlər doldusa,
Sən ağlama, mən ağlayım, gözəlim! [1, s.114]

Əhməd Cavadın bu şeiri taleyin hökmü qarşısında sevgilinin kədərinə cavabdehlik hissi daşıyan romantik bir qəhrəman obrazı yaradır. Fədakarlıq, idealist sevgi və hisslərin güclü ifadəsi romantizmin əsas nüvəsini təşkil edir. "..Əhməd Cavadın dili ədəbi dilimizin tarixində aydın leksikası, rəvan sintaksisi ilə yaddaşlarda və könüllərdə iz saldı." [4]

Süleyman Rüstəm poetik nitqdə qəhrəmanlıq və sevgi obrazlarını birləşdirir, bu da romantik və realist düşüncələrin sintezi kimi ortaya çıxır:

Sevgilimi sevməmişəm ürəksiz,
Görüşünə getməmişəm çiçəksiz,
Vətənimə olmamışam gərəksiz,
Eşq oduna gərək yanam, beləyəm. [8, s.51]

Şairin misralarında sevgi və vətən hissi iç-içə keçir. "Ürəksiz", "çiçəksiz", "gərəksiz" kimi sözlər romantik poeziyanın tipik leksikasını əks etdirir. Şeirdə duyğunun səmimiyyəti ilə vətəndaşlıq borcu və poetik məsuliyyət arasında bağ romantik ənənənin davamıdır.

**Nəticə.** 20-50-ci illər Azərbaycan poeziyasında romantizm bir cərəyan kimi olmasa da, poetik düşüncə və ifadə tərzində yaşamağa davam etmişdir. XX əsr Azərbaycan poeziyasında romantizm cərəyanı ədəbi və poetik dildə yeni bir mərhələ yaratmışdır. Bu dövrün şairləri klassik irsə söykənərək, eyni zamanda dövrün ictimai-siyasi proseslərinə cavab verərək fərdi hissləri, azadlıq arzularını, təbiət və sevgi motivlərini yüksək estetik səviyyədə dilə gətirmişlər. Romantizm cərəyanına məxsus dil xüsusiyyətləri — zəngin leksika, duyğu yüklü ifadələr, poetik sintaksis və bədii təsvir vasitələri ilə bu poeziya Azərbaycan ədəbiyyatında dərin iz buraxmışdır.

XX əsrin ortalarında romantizm bir ədəbi cərəyan olaraq aktuallığını itirsə də, poetik dilin ruhunda yaşamağa davam edirdi. Səməd Vurğun, Əhməd Cavad, Mikayıl Müşfiq və Süleyman Rüstəm romantizmin estetik gücündən istifadə edərək, onu vətənpərvərlik, sevgi, azadlıq və insanın daxili dünyası ilə birləşdirmişlər. Onların dili zəngin leksikası, emosional sintaksisi və bədii təsvir vasitələri ilə romantik təsiri yaşatmış, oxucunun hiss və düşüncəsinə dərin təsir göstərmişdir. Bədii təsvirlər bu dövrdə romantik təsirin poeziyada davam etməsinin ən güclü dəlilidir.

Əgər, Ə.Cavad və M.Müşfiqin yaradıcılığında romantizmin milli azadlıq, sevgi və duyğu mərkəzli ideyaları açıq şəkildə hiss olunurdusa, S.Vurğun romantizmi xalq şeiri ilə sintez edərək poetik duyğunu daha kütləvi və təsirli şəkildə təqdim edirdi. S.Rüstəm isə bəzən vətənpərvər motivləri romantik təbiət təsvirləri və idealist obrazlarla bəzəyərək oxucusuna çatdırırdı. Adları qeyd olunan şairlərimiz romantizmin estetik dəyərlərini, yəni duyğu dərinliyi, idealizm və hissi ifadə formasını qoruyaraq, bu xətti yeni tarixi və sosial kontekstdə davam etdirmişlər. Onların poetik dili həm xalq ruhuna bağlı, həm də romantik klassikanın estetik zənginliyi ilə formalaşmışdır.

## ƏDƏBİYYAT

1. Cavad Ə. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı: Azərnəşr, 1992, 326 s.
2. Cəfər M. Seçilmiş əsərləri 2 cilddə, II cild, Bakı: Azərnəşr, 1974, 340 s.
3. Əliyev K. Hüseyn Cavidin şəxsiyyəti və poetikası Bakı: Yazıçı, 1997, 89 s.
4. Kazımov İ. Əhməd Cavad və ədəbi dilimiz // Azərbaycan dili və ədəbiyyat tədrisi jurnalı, xüsusi buraxılış, 2022, s.22-37ə
5. Məhərrəmova T. Qısa ömrün əbədi sevgisi // Kaspi, 2018, 5 iyun, s.9
6. Müşfiq M. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1957, 190 s.
7. Osmanlı V. Azərbaycan romantizmi, 2 cilddə, I cild, Bakı: Elm, 2010, 462 s.
8. Rüstəm S. Seçilmiş əsərləri. 3 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2005, 262 s.
9. Vurğun S. Seçilmiş əsərləri. Bakı: Adiloğlu nəşriyyatı, 2004, 382 s.

10. XX əsr Azərbaycan şeiri antologiyası(1905-1920-ci illər) Tərtibçi: Məmmədov M, Bakı: Şərq-Qərb, 2005, 432 s.
11. https://zim.az/tehsil/aztu/1909-dilimizin-smd-vurun-zirvsi.html

***Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
***Filologiya fakültəsi, müəllim.***
***Email: leylamuzi@gmail.com***

**Leyla Hasanova**

## LINGUISTIC FEATURES OF ROMANTICISM IN POETRY OF THE 1920S-1950S

The article examines the continuation of romanticism in Azerbaijani poetry in the 20-50s of the 20th century, not as a trend, but as an artistic-aesthetic influence in the language and poetic thought of poets as a tradition. Based on the poems of prominent poets of that period, Ahmad Javad, Samad Vurgun, Mikayil Mushfig and Suleyman Rustam, the lexical, syntactic and artistic features of romanticism were involved in the study, and the continuous effects of romantic poetics on the poetic examples of the 20th century were shown with examples, and comprehensive hypotheses were put forward in this regard. The aim of the study is to reveal the traces left by romantic poetry in the creativity of our poets of the 20th century in terms of feeling and aesthetics.

**Keywords:** *romanticism, Azerbaijani poetry, Samad Vurgun, Ahmad Javad, Mikayil Mushfig, Suleyman Rustam, poetic language, romantic manifestation*

**Лейла Гасанова**

## ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ РОМАНТИЗМА В ПОЭЗИИ 20–50-Х ГОДОВ

В статье рассматривается продолжение романтизма в азербайджанской поэзии 20–50-х годов XX века не как направление, а как художественно-эстетическое влияние на язык и поэтическое мышление поэтов, как традиция. На примере стихов выдающихся поэтов того периода – Ахмеда Джавада, Самеда Вургуна, Микаила Мушфига и Сулеймана Рустама – исследованы лексические, синтаксические и художественные особенности романтизма, показано на примерах преемственное влияние романтической поэтики на поэтические образцы XX века, выдвинуты комплексные гипотезы в этой связи. Цель исследования – выявить следы, оставленные романтической поэзией в творчестве наших поэтов XX века в плане чувств и эстетики.

**Ключевые слова:** *романтизм, азербайджанская поэзия, Самед Вургун, Ахмед Джавад, Микаил Мушфиг, Сулейман Рустам, поэтический язык, романтическое проявление.*

*Filologiya elmləri doktoru Firudin Rzayev tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 03.07.2025**
**Son daxilolma tarixi:15.08.2025**